**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İstintaq idarəsi haqqında**
**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İstintaq idarəsi (bundan sonra - İdarə) Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Aparatının müstəqil struktur qurumudur.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyini, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. İdarə fəaliyyətini Nazirliyin Aparatının struktur qurumları, strukturuna daxil olan qurumları (bundan sonra - struktur qurumlar), dövlət və yerli özünüidarə orqanları, habelə digər qurumlarla əlaqəli həyata keçirir.

1.4. İdarə üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi və öz adı həkk olunmuş möhürə və müvafiq ştamplara malikdir.

## 2. İdarənin fəaliyyət istiqamətləri

2.1. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Nazirliyin səlahiyyətlərinə aid edilmiş cinayətlər (bundan sonra cinayət) üzrə ilkin yoxlama, ibtidai araşdırma aparır, törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxır, cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi məsələlərini həll edir, əməliyyat-axtarış tədbirlərinin keçirilməsi məqsədilə əməliyyat-axtarış fəaliyyəti subyektlərinə tapşırıqlar verir;

2.1.2. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. İdarənin vəzifələri

3.1. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. törədilmiş və ya hazırlanan cinayətlər haqqında daxil olan ərizə, məlumat və materialları qəbul edib qeydiyyata almaq və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə müvafiq olaraq ilkin yoxlama və ibtidai araşdırma aparmaq;

3.1.2. cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsini, pozulmuş insan və vətəndaş hüquq və azadlıqlarının bərpa edilməsini və cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsini təmin etmək;

3.1.3. cinayətkarlıqla mübarizə sahəsində aidiyyəti dövlət orqanlarının istintaq və əməliyyat-axtarış strukturları ilə qarşılıqlı əlaqələndirmə fəaliyyətini həyata keçirmək, hüquq-mühafizə orqanları ilə işgüzar münasibətlərin qurulmasını təmin etmək;

3.1.4. ittiham aktı tərtib edilmiş cinayət işlərinin Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsini təmin etmək;

3.1.5. ibtidai araşdırması digər hüquq-mühafizə orqanlarına aid olan cinayət xarakterli materialların və cinayət işlərinin aidiyyəti üzrə göndərilməsini təmin etmək;

3.1.6. hüquq-mühafizə orqanlarından, o cümlədən xarici dövlətlərin hüquq-mühafizə orqanlarından daxil olan istintaq tapşırıqlarının, habelə sorğu, vəsatət və müraciətlərin icrasını təmin etmək;

3.1.7. sənədlərin dövriyyəsini və arxivləşdirilməsini həyata keçirmək, cinayət işlərinin, materialların və maddi sübutların saxlanmasını təmin etmək;

3.1.8. cinayət işlərinin ibtidai istintaqı zamanı ədliyyə orqanları işçilərinin fəaliyyətində aşkar olunan ciddi pozuntularla bağlı Nazirliyin rəhbərliyinə məlumat və təqdimatlar vermək;

3.1.9. İdarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq daxil olmuş, məktub, sorğu, ərizə və şikayətlərə, idarə, müəssisə və təşkilatların müraciətlərinə baxmaq, dövri statistik və digər hesabatları tərtib etmək, cinayət işlərinin və materialların uçotunu aparmaq;

3.1.10. İdarənin əməkdaşlarının həvəsləndirilməsi, intizam qaydasında tənbeh edilməsi, xüsusi rütbələrin verilməsi məsələlərinin həll edilməsi üçün təqdimat vermək;

3.1.11. regional ədliyyə idarələrinin müstəntiqlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, vəzifələrin icrasının müvəqqəti həvalə edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq olunması, habelə vəzifədən kənarlaşdırılması, yerdəyişmə və ezam məsələlərinin həlli ilə bağlı Strateji planlaşdırma və monitorinq baş idarəsinə təkliflər vermək;

3.1.12. Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2008-ci il tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında” əsasnamənin tələblərinə uyğun olaraq axtarışda olan, barəsində tutulma haqqında qərar qəbul edilən, cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilən, barəsində qətimkan tədbiri seçilən şəxslər haqqında məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda aktiv statusunun dəyişdirilməsini təmin etmək;

3.1.13. “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tələbələrinə uyğun olaraq cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən şəxslərin uçot sənədləri və onlara dair məlumatları, o cümlədən daktiloskopik xəritələrini (Forma 2) Daxili İşlər Nazirliyinə təqdim etmək;

3.1.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata kecirmək;

3.1.15. İdarə daxilində informasiya təhlükəsizliyi işini təşkil etmək;

3.1.16. İdarənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Nazirliyin rəhbərliyinə təkliflər vermək;

3.1.17. İdarə işçilərinin şəxsi təhlükəsizliyi üzrə tədbirlər barədə təkliflər vermək, hüquqi maarifləndirmə işində iştirak etmək;

3.1.18. fəaliyyət istiqamətləri üzrə və Azərbaycan Respublikasının qanunvericiliyi, Nazirliyin təşkilati-sərəncamverici sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. İdarənin hüquqları

4.1 İdarə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. İcraatda olan cinayət işləri üzrə, eləcə də yoxlanılan məlumat və materiallarla əlaqədar qanunvericiliklə müəyyən edilmiş hüquqları həyata keçirmək, Nazirliyin elektron informasiya resurslarında mövcud olan məlumatları əldə etmək, dövlət orqanlarına, dövlət və qeyri-dövlət təşkilatlarına, yerli özünüidarə orqanlarına, hüquqi və fiziki şəxslərə, struktur qurumlara müraciət etmək, onlara sorğular vermək

və sənədlər, arayışlar, məlumatlar əldə etmək, digər prosessual hərəkətləri yerinə yetirmək;

4.1.2. cinayət işləri ilə əlaqədar olaraq əməliyyat-axtarış fəaliyyəti subyektlərinə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə tapşırıqlar vermək və görülmüş işlər barədə məlumat almaq;

4.1.3. cinayətin törədilməsinə şərait yaradan halları müəyyən etmək və aradan qaldırılması məqsədilə hüquqi və vəzifəli şəxslərə təqdimatlar göndərmək;

4.1.4. İdarənin fəaliyyət istiqamətləri üzrə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək, istintaq hərəkətlərinin aparılmasında müsbət təcrübəni daim öyrənməklə tətbiq etmək;

4.1.5. İdarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin təkmilləşdirilməsinə dair təkliflər vermək;

4.1.6. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## 5. İdarənin fəaliyyətinin təşkili

5.1. İdarənin strukturu və ştat vahidlərinin sayı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq olunur.

5.2. İdarəyə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis İdarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. İdarə rəisinin Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. İdarənin rəis müavini ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.4. İdarənin rəis müavini və işçiləri öz funksiyalarını vəzifələrinə uyğun olaraq və iş bölgüsünə əsasən yerinə yetirirlər.

5.5. İdarənin işi fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin iş planı əsasında həyata keçirilir.

5.6. İdarədə işin təşkili və vəziyyəti, qarşıda duran vəzifələr mütəmadi olaraq əməliyyat müşavirələrində müzakirə edilir.

5.7. **İdarənin rəisi**

5.7.1. İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.7.2. İdarənin işçiləri, habelə regional ədliyyə idarələrinin müstəntiqləri arasında iş bölgüsünü aparır, idarədə əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

5.7.3. müstəntiqin bütün səlahiyyətlərindən istifadə edir;

5.7.4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada hüquq və vəzifələri həyata keçirir, cinayət işləri üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılması üçün zəruri təşkilati tədbirlər görür;

5.7.5. həbsdə saxlama və ibtidai araşdırma müddətlərinin uzadılması barədə müstəntiqlərin vəsatətlərini ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim edir;

5.7.6. ittiham aktı tərtib edilmiş cinayət işlərinin Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsini təmin edir;

5.7.7. səlahiyyətləri çərçivəsində, cinayət işləri üzrə hüquqi yardım haqqında qanunvericilikdən və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasını təmin edir;

5.7.8. İdarənin müvafiq hesabatlarını təsdiq edir;

5.7.9. İdarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

5.7.10. Nazirliyin iş planında və kollegiya qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

5.7.11. İdarəyə yeni qəbul edilmiş işçilərin peşə hazırlığının artırılması üçün tədbirlər görür və onların işinə bilavasitə nəzarət edir;

5.7.12. İdarənin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.7.13. İdarədə işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq olunması, habelə işçilərin vəzifədən kənarlaşdırılması ilə bağlı Nazirliyin rəhbərliyinə təkliflər verir. Eyni məsələlərin regional ədliyyə idarələrinin müstəntiqlərinə aid hissədə həll olunması Strateji planlaşdırma və monitorinq baş idarəsinin təkliflərinə əsasən həyata keçirilir;

5.7.14. vətəndaşları qəbul edir;

5.7.15. əməliyyat müşavirəsi keçirir, idarənin və regional ədliyyə idarələrinin müstəntiqlərinin hesabatlarını dinləyir;

5.7.16. İdarənin fəaliyyətini struktur qurumlarla əlaqələndirir;

5.7.17. səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini müavininə tapşırır, öz səlahiyyətləri daxilində digər məsələləri həll edir. Xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir;

5.7.18. istintaq olunan cinayət işləri üzrə mətbuatda açıqlanması zəruri olan məlumatların Nazirliyin veb-saytında yerləşdirilməsinin təmin olunması üçün tərtib edilmiş arayışları Mətbuat xidmətinə göndərir;

5.7.19. səlahiyyəti daxilində İdarənin işçilərinə icrası məcburi olan sərəncam və digər yazılı və şifahi göstərişlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

5.7.20. İdarədə kargüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını və məxfilik rejiminə riayət olunmasını təmin edir;

5.7.21. İdarəni təmsil edir.

5.8. **İdarənin rəis müavini:**

5.8.1. ona tapşırılmış sahədə işin düzgün təşkil və icra edilməsini təmin edir;

5.8.2. İdarənin fəaliyyəti ilə bağlı məsələləri Nazirliyin kollegiyasının müzakirəsinə hazırlayır;

5.8.3. cinayət işlərini öyrənir, zəruri istintaq hərəkətlərinin aparılması ilə bağlı tapşırıq verilməsi üçün idarə rəisinin qarşısında məsələ qaldırır;

5.8.4. İdarənin işçilərini və regional ədliyyə idarələrinin müstəntiqlərini cəlb etməklə istintaq təcrübəsini ümumiləşdirir, istintaqın səmərəliliyinin artırılması məqsədilə tədbirlər barədə təkliflər, statistik və digər hesabatlar hazırlayır və İdarə rəisinə təqdim edir;

5.8.5. İdarədə kargüzarlıq işini təşkil edir, ciddi uçotda olan prosessual sənədlərin, blankların saxlanılması qaydasına və onların uçotunun düzgün aparılmasına, habelə cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən şəxslərin uçot sənədləri və onlara dair məlumatları, o cümlədən daktiloskopik xəritələrini (Forma 2) Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə təqdim edilməsinə nəzarət edir;

5.8.6. vətəndaşların qəbulunda iştirak edir;

5.8.7. İdarənin işçilərinin təlimlərdə iştirakı, peşə hazırlığının artırılması kurslarına cəlb edilməsi işini təşkil edir, İdarənin fəaliyyətinin təkmilləşdirilməsi üzrə İdarənin rəisinə təkliflər verir, İdarənin rəisi vəzifələrini icra edə bilmədikdə onun vəzifələrini icra edir, xidməti fəaliyyətlə əlaqədar Nazirliyin rəhbərliyinin və İdarə rəisinin tapşırıqlarını yerinə yetirir;

5.8.8. Nazirliyin informasiya resurslarında mövcud olan, eləcə də Nazirliyin müxtəlif fəaliyyət istiqamətləri ilə əlaqədar digər dövlət informasiya resurslarından məlumatların elektron sorğular əsasında avtomatlaşdırılmış rejimdə əldə edlməsinə, habelə Penitensiar Xidmətin “Cəzaçəkən məhkumlar və həbs edilmiş şəxslər” informasiya sistemindən və Probasiya Xidmətinin fəaliyyət sahəsi üzrə məhkum olunmuş şəxslər barədə məlumatların əldə edilməsi fəaliyyətinə nəzarət edir.